

*Həm seçkilər, həm də seçkilərdən sonra keçən dövr, iqtidar tərəfindən siyasi partiyalara yönəlmiş addımlar – bütün bunlar bizim mövcud siyasətimizin yeni mərhələsini əks etdirir. Bu, bizim islahatçı kursumuzu əks etdirir. Bildiyiniz kimi, islahatların yeni mərhələsi 2018-ci ilin prezident seçkilərindən sonra başlamışdır. Bu islahatları mən andiçmə mərasimində, bax, bu salonda bəyan etmişdim. Biz onları ardıcıl olaraq icra edirik və bu, həyatda öz əksini tapır.*

**Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasındakı nitqindən**
**10 mart 2020-ci il**

# Parlament seçkilərindən keçən bir ilin siyasi uğurları ürəkaçandır

**Bəri başdan qeyd edək ki, ötən il fevralın 9-da keçirilmiş parlament seçkilərindən sonra qazandığımız siyasi uğurların mükəmməl bir siyahısı yaranmışdır. Belə ki, dövlət başçımızın təşəbbüsü ilə bir neçə beynəlxalq tədbir keçirilmiş, dünyanın aparıcı dövlətləri Azərbaycanın haqq işini dəstəkləyən bəyanatlar vermiş, ölkəmizin pandemiya dövründəki fəaliyyəti hamı tərəfindən yüksək qiymətləndirilmiş və hərtərəfli islahatların davam etdirilməsi dönməz xarakter almışdır. Ancaq qətiyyətlə deyə bilərik ki, son bir ildəki ən böyük uğurumuz faşist Ermənistanının silahlı qüvvələrini darmadağın edərək, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinə nail olmağımızdır.**

Əlbəttə, ötənilki parlament seçkilərindən sonrakı uğurlarımız barədə qələm sahiblərinin hərəsi bir formada, fərqli məzmunlarla yaza bilərlər. Ancaq Prezident İlham Əliyevin bu məsələyə münasibəti daha məzmunlu və daha konkretdir. Belə ki, bu il yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə dövlət başçımız bildirmişdir: "Azərbaycan 44 gün ərzində tarixi qələbə qazanaraq, öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb, təslim olub və biz 3 rayonumuzu bir güllə atmadan, bir şəhid vermədən siyasi yollarla geri qaytardıq. Beləliklə, Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu. Biz bunu hərbi yollarla həll etdik... Mən dəfələrlə demişdim ki, əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, biz bu məsələni hərbi yolla həll edəcəyik və belə də oldu – hərbi yolla. Ondan sonra məsələ siyasi yolla həll olundu və tarixi ədalət bərpa edildi."

Prezident İlham Əliyev bütün ictimai-siyasi proseslər zamanı qətiyyətlə bəyan edir ki, dövlətimizin qazandığı uğurların hamısı xalq – iqtidar birliyinin, xalqın öz liderinə inanmasının, liderin isə xalqına güvənməsinin nəticəsidir. Dövlət başçımız ötən il keçirilmiş parlament seçkilərindən sonra formalaşdırılmış Milli Məclisin ilk iclasındakı nitqində də bu məsələyə xüsusi önəm vermişdi: "Beləliklə, bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır... Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır".

Ötənilki seçkilərdən sonra ölkəmiz haqqında danışan ekspertlər deyirdilər ki, Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Elə dövlət başçımızın mövqeyi də həmin arqumentlərlə üst-üstə düşürdü. Ancaq Prezident həmin tezisi dilə gətirməklə yanaşı, parlament rəhbərliyinin və deputatların qarşısına yeni vəzifələr də qoyurdu. Qeyd edirdi ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq: "Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz, doğrudan da, istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, – biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, – onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır".

Deməli, seçkilərdən sonra ölkəmizdə yeni siyasi konfiqurasiyanın formalaşdırılmasına start verilməsi ilə yanaşı, hansısa siyasi partiyanı yaratmaq üçün heç bir tələbin irəli sürülməməsi də reallığa çevrildi. Fikrimizcə, bu iki fakt ötənilki seçkilərdən sonra imza atdığımız ən mühüm nailiyyətlərdəndir. Bu zaman başqa bir məqamı xüsusilə qabartmaq lazımdır. Belə ki, həm adıçəkilən seçkilərin keçirilməsi, altıncı çağırış Milli Məclisin həm formalaşdırılması, həm də bu qanunverici orqanın fəaliyyəti tamamilə ölkədə aparılan islahatların nəticəsi idi. Prezidentin dediyi kimi, islahatlar həm konseptual , həm də struktur xarakteri daşıyır.

Bu məqama toxunan dövlət başçımız hələ ötən ilin martında xatırladırdı ki, son müddət ərzində Prezident Administrasiyası, demək olar ki, tam yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır. Bu şöbələrin yaradılması, eyni zamanda, bizim niyyətimizi təsdiqləyir. Nazirlər Kabineti yeni tərkibdə formalaşmışdır. Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir: "Nazirliklərdə kadr islahatları aparılmışdır, yerli icra orqanlarında bu islahatlar aparılır və aparılacaq". Prezidentin fikrincə, islahatların dərinləşməsi, əlbəttə ki, parlamentdən yan keçə bilməzdi.

O ki, qaldı bizim ötənilki siyasi cəhdlərimizə, diplomatik fəaliyyətimizə, hərbi qüdrətimizi artırmağımıza və digər dövlət əhəmiyyətli tədbirlərin reallaşdırılmasına, qətiyyətlə deyə bilərik ki, həmin addımların hamısının müsbət nəticələrini gördük və hələ çox görəcəyik. Çünki biz ötən il tarixi ədaləti bərpa etdik. Biz bütün dünyaya gücümüzü göstərdik: "Göstərdik ki, heç kim bizim iradəmizin qabağında dura bilməz. Eyni zamanda, məsuliyyət göstərdik, ədalət göstərdik, Ermənistan ərazisinə girmədik. Baxmayaraq ki, Ermənistan ərazisindən bizə qarşı namərd atəşlə törədilən hərbi cinayət nəticəsində onlarla mülki şəxs həlak oldu, şəhərlərimiz bombalandı. Biz Ermənistan ərazisinə keçmədik. Biz beynəlxalq hüquqa hörmətimizi göstərdik. Baxmayaraq ki, mənfur düşmən üçün heç bir mənəvi çərçivə yoxdur, heç bir mənəvi dəyər yoxdur... Biz döyüş meydanında düşməni çökdürdük. Döyüş meydanında düşmənə elə dərs verdik ki, onlar bu günə qədər bu dərsdən özlərinə gələ bilmirlər".

Ötən parlament seçkilərindən sonrakı dövrün digər uğurlarına gəlincə isə xatırladaq ki, Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yerdədir. Biznes iqlimi, investisiya iqlimi, aparılan islahatlar Dünya Bankı tərəfindən qeyd edilir. Bundan əlavə, Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir.

Dövlət başçımız Davos Ümumdünya İqtisadi Forumunun hesabatının bəzi parametrlərini qeyd edərək xatırladır ki, əhalinin elektrik təchizatı səviyyəsinə görə ölkəmiz dünya miqyasında ikinci yerdədir. Hökumətin dəyişməyə cavabdehliyi, yəni ki, islahatçı obrazı əmsalına görə Azərbaycan dünya miqyasında beşinci yerdədir. Hökumətin uzunmüddətli strategiyası məsələsinə görə Azərbaycan 10-cu yerdədir. Hökumətin siyasi sabitliyi təmin etməsi məsələsinə görə Azərbaycan 11-ci yerdədir.

Bütün bunlar onu göstərir ki, beynəlxalq ictimaiyyət Azərbaycanda həyata keçirilən islahatları diqqət mərkəzində saxlayır və nəticələrin müsbət olduğunu daim xatırladır. 2020-ci ilin payızından – 30 il düşmən əsarəti altında olan torpaqlarımızın azad edilməsindən, böyük qayıdışın başlanmasından sonra isə daha böyük inkişaf proseslərinə start verilmişdir. Bu məsələdə dövlət başçımızın iradəsi belədir: "Biz bütün bu işləri daha da fəal, daha da məqsədyönlü şəkildə aparmalıyıq ki, Azərbaycanın imkanlarını genişləndirək və ölkəmizin inkişaf dinamikasını artıraq".

Əminik ki, qarşıya qoyduğumuz digər vəzifələr kimi, bu məqsədlərimizə də çatacağıq.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 14 fevral.- S.1.